# HÜQUQİ DÖVLƏT QURUCULUĞUNDA ÜMUMMİLLİ LİDERİN ƏVƏZSİZ XİDMƏTLƏRİ



Müasir Azərbaycan tarixinin 30 ildən artıq bir dövründə respublikamıza rəhbərlik etmiş Heydər Əliyev dövlətçilik salnaməsində elə bir irs yaratmışdır ki, onun öyrənilməsinə, təbliğinə və tətbiqinə hələ uzun illər böyük ehtiyac olacaqdır və bu irs heç zaman tükənməyəcəkdir. Hər zaman Azərbaycan xalqının mənafeyini düşünən Heydər Əliyev azərbaycanlı olması ilə fəxr edirdi. Dahi rəhbərin "Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam" müdrik kəlamı dillər əzbəri olmuş, hər bir azərbaycanlının iftixarla səsləndirdiyi şüara çevrilmişdir.

Ümummilli liderimizin 1969-1982-ci illərdəki rəhbərliyi fəaliyyətinə diqqət yetirsək görərik ki,o dövrdə respublikaya rəhbərlik etdiyi vaxtlarda ölkəmizdə qanunçuluğun və hüquq qaydasının möhkəmləndirilməsinə, strateji əhəmiyyətli sənaye və istehsal müəssisələrinin inşasına nail olmaqla Azərbaycanın iqtisadi inkişaf göstəricilərinə görə keçmiş İttifaq miqyasında ilk yerlərdən birini tutmasını təmin etmişdir.

Bütün dünyada nüfuzlu siyasi xadim kimi tanınan Heydər Əliyev Sovetlər Birliyi kimi super dövlətin rəhbərliyində təmsil olunmaqla öz fitri istedadı və şəxsi nüfuzu ilə orada da kəskin fərqlənmişdi. Heydər Əliyev görkəmli dövlət xadimi və müdrik siyasətçi kimi ən yüksək vəzifəyə çəkilməyə layiq bilinirdi. O, ilk azərbaycanlı idi ki, belə zirvəyə gəlib çıxmış, xalqına möhtəşəm xidmətləri ilə Azərbaycanın güvənc yerinə və bütün türk dünyasının fəxrinə çevrilmişdir.

Müstəqilliyin ilk illərində ölkənin məruz qaldığı hərbi təcavüz, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin ağır nəticələri, habelə ölkə daxilində vətəndaş müharibəsinin reallığa çevrildiyi bir şəraitdə xalqımızın yeganə ümidi dəmir iradəyə, yüksək idarəçilik keyfiyyətlərinə, geniş siyasi dünyagörüşünə malik xarizmatik lider olan Heydər Əliyevlə bağlı olmuşdur. Məhz belə bir mürəkkəb vəziyyətdə 1993-cü ilin yayında ulu öndər xalqın çağırışı ilə respublikaya rəhbərliyə qayıtdı. Xalqımızı və dövlətimizi böyük təhlükələrdən xilas etmək, müstəqil Azərbaycan dövlətini qurmaq missiyasına "ömrümün qalan hissəsini də xalqıma bağışlayıram" söyləməklə başlayan Heydər Əliyev nadir və iti dövlətçilik zəkası, cəsarəti və sarsılmaz iradəsi ilə Azərbaycanda keçmiş sovetlər birliyindən miras qalmış rejim əvəzinə demokratik hüquqi dövlət yaratmağa müvəffəq oldu. Təsadüfi deyil ki, 1993-cü ildə ulu öndərimiz dövlət quruculuğu ilə bağlı qarşıya qoyduğu vəzifələri belə bəyan edərkən bildirmişdir: "Azərbaycan Respublikasında demokratik, hüquqi dövlət qurulmalıdır. Azərbaycan dövləti demokratik prinsiplər əsasında fəaliyyət göstərməlidir, öz tarixi, milli ənənələrindən bəhrələnərək, dünya demokratiyasından, ümumbəşəri dəyərlərdən səmərəli istifadə edərək demokratik dövlət quruculuğu yolu ilə getməlidir".

"Biz istəyirik ki, dövlətimiz tam demokratik, tam hüquqi, tam dünyəvi bir dövlət olsun. Bunun üçün də Azərbaycanda demokratiyanın bərqərar olması, inkişaf etdirilməsi, hüquqi aliliyin təmin olunması əsas vəzifəmizdir",- ümummilli lider ölkədə cərəyan edən hadisələri dərindən təhlil edib Azərbaycanın müstəqilliyini təmin etmək, onu möhkəmləndirmək, ölkədə demokratik hüquqi dövlət qurmaq, ilk növbədə, ictimai-siyasi sabitlik, qanunçuluq, hüquq qaydası təmin edilməsi sahgəsində mühüm islahatların həyata keçirilməsini təmin etdi.lidir.

Ölkədə genişlənmiş cinayətkarlığa qarşı qəti mübarizə aparmaq üçün imzaladığı xüsusi Fərman qanunçuluğun və hüquq qaydalarının möhkəmləndirilməsində əsaslı dönüş yaratdı. Hüquq-mühafizə orqanları tərəfindən müvəffəqiyyətlə həyata keçirilən qəti tədbirlər nəticəsində cəmiyyətdə hökm sürən hərc-mərcliyə və özbaşınalığa birdəfəlik son qoyuldu. Müstəqilliyin qorunması onun əldə edilməsindən qat-qat çətin olduğunu deyən dahi rəhbər Heydər Əliyev bu ağır vəzifənin öhdəsindən layiqincə gəldi. Heydər Əliyev dövlət müstəqilliyimizi əbədi və dönməz etdi, ölkəmizə sabitlik, sülh və əmin-amanlıq, siyasi islahatlar, demokratikləşmə, iqtisadi yüksəliş, sosial inkişaf gətirdi. Atəşkəsə nail oldu, iqtisadiyyatı dirçəltdi, Azərbaycanı tənəzzül etmiş dövlətdən inkişaf edən ölkəyə çevirdi. Respublikamızın beynəlxalq əlaqələrini möhkəmləndirərək gələcək inkişafa hesablanmış neçə-neçə layihələrin, xüsusilə uğurlu neft strategiyasının təməlini qoydu.

Zəngin dövlətçilik təcrübəsinə malik olan böyük strateq Heydər Əliyev hüquqi dövlətin ilk milli Konstitusiyasını yaratdı. Danılmaz faktdır ki, 1995-ci ilin noyabrında ümumxalq səsverməsi yolu ilə qəbul olunmuş Konstitusiyamızın müəllifi məhz ümummilli liderimiz Heydər Əliyevdir. Gərgin fəaliyyət nəticəsində "Konstitusiya Məhkəməsi haqqında", "Məhkəmələr və hakimlər haqqında", "Prokurorluq haqqında", "Polis haqqında", "Əməliyyat-axtarış fəaliyyəti haqqında" və hüquq sisteminin mahiyyətini müəyyən edən digər qanun və bütün əsas məcəllələrin layihələri hazırlandı və nüfuzlu beynəlxalq qurumlarda ciddi ekspertizadan sonra qəbul edildi. İnsan hüquqlarının qorunmasına müstəsna əhəmiyyət verən ümummilli liderimizin 1998-ci ildə imzaladığı "İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi sahəsində tədbirlər haqqında" Fərmanında bu sahədə həyata keçirilən tədbirlərin istiqaməti və konsepsiyası səhih müəyyən edildi, insan hüquqları məsələsi ümumdövlət səviyyəsinə qaldırıldı.

Dövlətimizin insan hüquqları sahəsində atdığı ən mühüm addımlarından biri, şübhəsiz ki, ölüm cəzasının ləğvi olmuşdur. 1993-cü ildən ölüm cəzasının icrasına veto qoyulması, 1998-ci ildə isə Şərqdə ilk dəfə olaraq Azərbaycanda bu cəza növünün tamamilə ləğv edilməsi ulu öndər Heydər Əliyevin böyük qəlb və mənəviyyat sahibi olduğunu, şəxsiyyətcə böyüklüyünü bir daha təsdiqləyir.

***Vüqar QASIMOV,***
***Xətai Rayon Məhkəmə İcra şöbəsinin rəisi***

# "YERLİ DEMOKRATİK İDEYALARA İŞIQ TUTAN HEYDƏR ƏLİYEV İRSİ"



Azərbaycanda müstəqil dövlət təsisatlarının qurulması, demokratik, hüquqi dövlətin yaranması, o cümlədən yerli özünüidarəetmənin, vətəndaş cəmiyyətinin formalaşdırılması məhz ümummilli liderimiz Heydər Əliyevin müstəsna xidmətləridir.

Ulu öndər vətəndaşların dövlət idarəetməsində iştirakına, onun ən mühüm vasitəsi kimi yerli özünüidarəetmə institutuna daim xüsusi önəm vermişdir. Dahi lider bələdiyyələrin formalaşması prosesində onların işgüzar bir orqana çevrilməsi, yerli əhəmiyyətli sosial-iqtisadi məsələlərin həllində müstəqil rol oynaması üçün qayğı və diqqətini əsirgəməmişdir.

Bu qayğının nəticəsi olaraq ölkəmizdə bələdiyyələrin fəaliyyətə başlaması ilə eyni vaxtda Ulu Öndərin sərəncamı ilə onlara işlərini təşkil etməyə köməklik göstərilməsi məqsədilə Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinin nəzdində xüsusi qurum yaradılmışdır. Həmçinin bələdiyyələrin fəaliyyətində qanunçuluğun təmini məqsədilə inzibati nəzarət fəaliyyəti ilə bağlı 2003-cü ildə qanun qəbul edilmiş və bu vəzifə də Ədliyyə Nazirliyinə həvalə olunmuşdur.

Cəsarətlə deyə bilərik ki, ölkəmizdə bələdiyyələrin fəaliyyətinə inzibati nəzarət institutu yerli özünüidarəetmə sisteminin yüksək səviyyədə inkişaf etdiyi Almaniya, Türkiyə və digər ölkələrlə müqayisədə çox liberaldır. Məsələn, bir sıra ölkələrdən fərqli olaraq Azərbaycanda bələdiyyə qərarlarının hüquqi qüvvəyə minməsi inzibati nəzarət orqanının rəyindən asılı deyildir, eləcə də bələdiyyə aktları yalnız onu qəbul etmiş bələdiyyə tərəfindən ləğv edilə və ya məhkəmə tərəfindən etibarsız hesab oluna bilər.

Həmçinin qanunvericiliyimizdə bələdiyyələrin müstəqilliyinin təminatı kimi inzibati nəzarətin nəticələri barədə ölkə parlamentinə illik məruzə təqdim edilməsi nəzərdə tutulmuşdur. Bununla bağlı hər ilin yekunu üzrə Ədliyyə Nazirliyinin məruzəsi Milli Məclisdə geniş müzakirə edilir.

Milli liderin tövsiyəsi, xeyir-duası ilə formalaşan və fəaliyyətə başlayan bələdiyyələr özünəməxsus inkişaf yolu keçərək ölkəmizdə sosial, iqtisadi, ekoloji və digər layihələrin reallaşmasında iştirak etməklə dövlət başçısı İlham Əliyevin rəhbərliyi ilə aparılan quruculuq işlərində əhəmiyyətli rol oynayırlar.

Heydər Əliyev strategiyasını uğurla inkişaf etdirən ölkə Prezidenti İlham Əliyevin fərman və sərəncamları ilə təsdiq olunan müxtəlif dövlət proqramlarında, milli fəaliyyət planlarında yerli özünüidarəetmə sahəsi ilə bağlı mühüm vəzifələr müəyyən edilir. Bütün bunlar bələdiyyə institutunun cəmiyyətin idarə olunmasında rolunun artırılmasını şərtləndirir.

Ədliyyə Nazirliyi də öz fəaliyyət istiqamətlərinə uyğun olaraq Ulu öndərin tövsiyələri, dövlət başçısı İlham Əliyevin tapşırıqlarını əsas götürərək yerli özünüidarəetmə orqanlarının ölkəmizdə aparılan mütərəqqi islahatların ruhuna uyğun daha səmərəli fəaliyyəti üçün tədbirləri davam etdirir.

Qeyd edim ki, dövlətimizin yerli özünüidarəetmənin inkişafına dəstəyinin növbəti təzahürlərindən biri kimi 2019-cu ildə bələdiyyələrin fəaliyyətinin təşkilinə kömək və onlara metodoloji yardımın hüquqi əsasları gücləndirilərək qanun səviyyəsində təsbit olunmuşdur.

Bələdiyyələrin Ulu öndərin çox dəqiqliklə müəyyənləşdirdiyi hədəflərə doğru irəliləməsi, onların yerli əhəmiyyətli məsələlərin həllində iştirakının genişləndirilməsi üçün mühüm şərtlərdən biri yerli büdcələrin imkanlarının artırılmasıdır. Bu məqsədlə Ədliyyə Nazirliyi tərəfindən qanunvericiliklə müəyyənləşdirilmiş gəlir mənbələrindən tam və səmərəli istifadə olunması, o cümlədən yerli vergilər üzrə vergitutma obyektlərinin uçotunun dəqiqləşdirilməsi, vergilərin qanunauyğun hesablanaraq yığılmasının təmin olunması üçün tədbirlər görülür və müsbət nəticələr əldə edilir.

Qeyd edim ki, son iki ildə ümumi yerli büdcə gəlirləri 2020-ci illə müqayisədə üçdə bir dəfə (12,4 milyon manat 35%), o cümlədən yerli vergilərdən daxil olmalar isə 43% (6 milyon manat) artmışdır. Həmçinin ötən ilin yerli büdcə gəlirləri 2014-cü ildən sonra ən yüksək məbləğdə olmuşdur. Bir müsbət məqamı da vurğulayım ki, büdcə gəlirləri ötən illə təxminən eyni səviyyədə olmuş 2013 və 2014-cü illərdə ümumi büdcə gəlirlərinin 50%-ə yaxın hissəsini torpaq satışından əldə olunan vəsait təşkil edirdisə, 2022-ci ildə isə büdcənin əsaslı artımında vergi gəlirləri üstünlük təşkil etmiş, torpaq satışından daxil olmalar 2,5 dəfə azalmışdır.

Bələdiyyə idarəçiliyinin səmərəliliyinin artırılmasının digər mühüm şərti yerli əhalinin ona ictimai etimadının və inamının olmasından, nəticə etibarilə bələdiyyəsini dəstəkləməkdən ibarətdir. Yerli özünüidarəetmənin mahiyyəti yerli əhali ilə sıx təmasda olmaq, onların problemlərinə, müraciətlərinə həssaslıqla yanaşmaqdır.

İnsanlara, öz xalqına qayğılı münasibətin, daim onların rifahı üçün çalışmanın ən bariz nümunəsini biz məhz Ulu öndərin timsalında görmüşük. Bu gün Prezidentimiz cənab İlham Əliyev özünü xalqının xidmətçisi adlandıraraq, hər bir məmurdan insanlara qayğı və diqqətlə yanaşmağı tələb edir.

Ədliyyə Nazirliyi tərəfindən yerli əhəmiyyətli məsələlərin həllində iştirak edən bələdiyyələrin rolunun ictimaiyyətə çatdırılması məqsədilə zəruri tədbirlər görülməsinə diqqət artırılmışdır.

Bələdiyyələr tərəfindən müharibə iştirakçılarının və şəhid ailələrinin sosial rifahının yaxşılaşdırılmasına, xatirəsinin əziz tutulmasına dair görülən işlərlə bağlı ötən il nazirlik tərəfindən ümumiləşdirilmiş məlumat hazırlanmış və müxtəlif kütləvi informasiya vasitələrində yayımlanmışdır. Həmçinin son bələdiyyə seçkilərindən keçən dövr ərzində bir sıra bələdiyyələr tərəfindən yerli əhalinin rifahı naminə görülən işlər barədə nazirliyin metodik dəstəyi ilə broşürlər hazırlanaraq çap edilmiş və sakinlərə paylanılmışdır.

Eyni zamanda yerli özünüidarəetmə institutunun mahiyyəti, bələdiyyələrin yerli əhalinin sosial problemlərinin həlli məqsədilə gördüyü işlər, yerli vergi və ödənişlərin ödənilməsinin əhəmiyyəti və sair məsələlərlə bağlı videoçarx hazırlanaraq nazirliyin sosial şəbəkələrdəki səhifələrində paylaşılmışdır. Qeyd edim ki, bu cür məlumatlar insanlar tərəfindən çox müsbət qarşılanmışdır.

Əhalinin bələdiyyələrlə sıx əlaqələrinin qurulması, özünüidarə işlərində onların getdikcə daha fəal iştirak etmələri, bələdiyyə idarəçiliyinə əhalinin maraq və inamının artması ümummilli lider tərəfindən seçilmiş yolun düzgünlüyünü və dönməzliyini göstərir.

Bugünki tədbirdə vətəndaş cəmiyyəti institutlarının və medianın xeyli sayda təmsilçiləri iştirak edir. Fürsətdən istifadə edərək bələdiyyələrin fəaliyyətinin işıqlandırılmasına diqqətin artırılmasını xahiş edirəm.

Eyni zamanda Ədliyyə Nazirliyi yanında İctimai Şuranın üzvlərinə yerli özünüidarəetmədə ictimai iştirakçılığa xüsusi önəm verərək Şuranın tərkibində yerli özünüidarəetmə üzrə Komitə yaradılmasına görə minnətdarlığımı bildirirəm.

Azərbaycan xalqı bütün həyatını qüdrətli Azərbaycan dövlətinin yaradılmasına və inkişafına həsr etmiş Ümummilli Liderin əziz xatirəsini daim uca tutur və ehtiramla yad edir.

İnanıram ki, Ulu öndərin adı ilə bağlı olan bu əlamətdar ildə ölkəmizdə yerli demokratiyanın inkişafı, bələdiyyələrin fəaliyyətində səmərəliliyin artırılması sahəsində də diqqətəlayiq uğurlar əldə ediləcəkdir.

***Elmin Həsənov***
***Bələdiyyələrlə İş mərkəzinin rəis müavini***

***Oxucularımıza təqdim etdiyimiz bu kitabın müəllifi rusiyalı araşdırmaçı publisist Modest Kolerovdur. Onun ermənilərin "milli qəhrəmanı", faşist xislətli Njde Qaragenin fəaliyyətində yeni arxiv sənədlərin aşkar edilərək kitab şəklində dünya ictimaiyyətinə çatdırması bir daha sübut edir ki, faşizmə barışmayan dünya erməni xislətini də tanımalı, mübarizə sürətlə davam etməlidir.***

# QAREGİN ƏSL ERMƏNİ FAŞİSTİ OLUB

## Гарегин Нжде: миф и реальность

*(Əvvəli ötən sayımızda)*

Съезд также выражает свои дружеские чувства Персии. Как было сказано, единственным врагом Сюника и Нжде была Советская Армения. Значит, с Советским Азербайджаном можно было подружиться. С турками тоже нужно было сдружиться, забыв "неуместную вражду", но только с Советской Арменией необходимо было бороться, разрушать, уничтожать, с ней дружить было нельзя, потому что это означало присоединить Зангезур к родине, но это означало бы потерять власть, личную неограниченную власть. Здесь, в Зангезуре, Нжде был не только спарапетом (главнокомандующим армией), здесь он был самовластным, мог миловать и карать, здесь он "царь и бог", а кем бы он был в условиях советского строя? Честолюбие и властолюбие, которые порой доходили до курьёза, стали основным мотивом его поведения, который и привёл его к немцам. Гитлеровцы не давали никакого повода Нжде считать, что они ведут какую-нибудь подготовку против Турции. Зачем им это было нужно? Или же немцы были столь глупы, что, вместо привлечения Турции на свою сторону, наоборот, были очарованы несколькими армянскими авантюристами и окончательно оттолкнули бы от себя турок, бросили бы их в лагерь противников, тем самым создав новый фронт против себя? В самом деле Нжде был столь наивен, чтобы предположить, что он вербует группу армян для использования их против Турции, а немцы, оставив все свои заботы, тренировали эту беспорядочную массу и заботились о его расходах только для того, чтобы храбрый Нжде отправился и освободил свою историческую родину?

Позже, в советской тюрьме, Нжде расскажет, насколько он был разочарован в нацистах, когда те нескольких человек, завербованных им, вместо подготовки против турок, забрали у него, передали "предателю родины Дро" и отправили в Крым против Красной Армии. План военных действий против Турции при поддержке немцев существовал только в воображении Нжде. Или, что более вероятно, Нжде делал вид, будто поверил, что это произойдёт, было удобно так притворяться. В первые годы войны многие были уверены, что она завершится очень быстро и непременно победой немцев. Нжде тоже поспешил броситься в лагерь "победителей", дабы в будущем стать единственным и неоспоримым лидером армянского народа, вождём племени... Потёртую игральную карту борьбы против Турции Нжде потом использует ещё, на сей раз уже для объяснения, почему он предложил свои услуги советской госбезопасности.



Ну, конечно, он, Нжде, - рыцарь, а рыцарю не пристала такая человеческая слабость, как страх смерти. Его желание - только расправа над Турцией: кто ещё, если не он? То, что не удалось с помощью немцев, удастся вместе с победоносными Советами. И в советской тюрьме слабость к славе не оставила его, правда, теперь уже болезненное самолюбование "рыцаря" и синдром собственной исключительности получали более забавные проявления, особенно на фоне того бедственного положения, в котором он оказался.

Нжде снова говорит о турецкой угрозе, даже о большой вероятности нанесения удара по Армении со стороны Турции, как будто Советская Армения - знаменитый "самостоятельный Сюник", государство из нескольких сёл. А в письме, адресованном Врацяну, даже не исключает опасности нанесения ядерного удара по Армении со стороны Запада, союзника Турции. Холодная война набирала обороты, и в этих условиях настоящая война не казалась невероятной для многих. Но вот возьми и пойми, почему Запад из всей территории СССР именно Армению должен был превратить в мишень для своего ядерного удара, какую тактическую цель должны были осуществить этим ударом США и их союзники? Хорошо, но даже если Запад должен был развязать новую мировую войну, да ещё с использованием ядерного оружия, то что должен был сделать несчастный Врацян совместно с диаспорой, чтобы спасти многострадальную родину? Может показаться, что Нжде окончательно потерял связь с реальностью, что-то присущее каждой эгоцентричной и самовозвеличивающей натуре, но до такой ли степени, чтобы в собственных суждениях доходить до полного абсурда? Очень трудно избежать такого впечатления, что Нжде каждый раз, напоминая про "турецкий фактор" для обоснования и оправдания своего того или иного поступка, подразумевает что-то совершенно иное. И на сей раз Нжде прибегает к той же хитроумной увёртке, чтобы объяснить и оправдать свою готовность услужить КГБ СССР. Давайте здесь для начала познакомимся с протоколами допросов Нжде, свидетелей и заключенных по возбуждённому против него уголовному делу, для того чтобы было легче угадать истинные мотивы его поведения.

Следователь: Какое положение Вы занимали в партии Дашнакцутюн?

Нжде: В партии я занимал видное положение... являясь членом Центрального комитета Дашнакцутюн. Я покинул партию в 1937 году по причине личной антипатии к Рубену Тер-Минасяну, руководителю бюро Дашнакцутюн.

Следователь: С кем из немецкой разведки Вы встречались в Берлине?

Нжде: У меня был разговор с представителем немецкой разведки, который назвал себя майор Друм.

Следователь: О чём с Вами разговаривал майор Друм?

Нжде: Друм поинтересовался мной, я сказал, что я генерал дашнакской армии, армянский националист… он меня спросил, чем мы, армяне, можем помочь Германии? Я предложил открыть в Берлине школу для армян, где немцы будут тренировать их, а затем используют по своему усмотрению. Друм ухватился за это предложение и поручил подобрать группу из болгарских армян - примерно тридцать человек - и отправить в Берлин, где их подготовят для диверсионных целей и перебросят в Советскую Армению.

Следователь: Что Вы сделали на практике, чтобы выполнить поручение немцев?

*(Davamı gələn sayımızda)*